# İdman xəbərləri

## İdmançımızdan qızıl medal

Rusiyanın paytaxtı Moskvada Karate1 Premyer Liqası keçirilib. "Qəbələ" İdman Klubunun karateçisi Rafael Ağayev də yarışda güvvəsini sınayıb. 75 kq çəki dərəcəsində çıxış edən idmançımız Yassin Sekuri (Mərakeş), Rodriqo İbanez (İspaniya) və Matus Lieskovskini (Slovakiya) eyni - 1:0 hesabı ilə məğlub edərək yarımfinala yüksəlib.



Rafael bu raundda iranlı Bəhmən Əsgərini 2:0 hesabı ilə üstələyib. Final döyüşündə onun rəqibi Yermek Aynəzərov (Qazaxıstan) olub. Ağayev bu qarşılaşmada da qalib gəlib - 1:0. Beləliklə, 5 qələbə qazanan təmsilçimiz yarışın qızıl medalına yiyələnib və fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Avropa çempionatında bürünc medal qazanıb

"Qəbələ" İdman Klubunun taekvondoçusu Cavad Ağayev Avropa çempionatında uğurla çıxış edib. İdmançımız İspaniyanın Marina Dor şəhərində keçirilən gənclər arasında qitə birinciliyində 68 kq çəki dərəcəsində 3-cü yerə çıxaraq çempionatın bürünc medalını qazanıb.

# Boranı

## (lat. Cucurbita)

Azərbaycanda boranının bir neçə növü becərilir. Boranı qiymətli tərəvəz bitkisi olmaqla bərabər, çox mühim müalicəvi əhəmiyyətə də malikdir. Boranı karotinlə (A provitamini ilə) çox zəngindir. Ona görə də boranıdan hazırda sənaye miqyasında karotin istehsal olunur. Boranının tərkibində karotin, C, B1, B 2 vitaminləri və şəkər vardır. Boranını bişirib xroniki mədə-bağırsaq, böyrək və sidik yolları xəstəliklərində yemək çox faydalıdır.



Boranının lət hissəsi və şirəsi qəbizliyin qarşısını almaqla yanaşı iltihabı aradan qaldırır, böyrək və sidik yollarının fəaliyyətini tənzim edir. Boranı toxumlarının isə qurdqovucu təsiri vardır.

**İstifadə qaydası:** boranını dilim-dilim doğrayaraq bişirib yemək məsləhətdir. Lentvari qurdları qovmaq məqsədilə boranı toxumlarını qabıqlarından təmizləyəndən sonra, acqarına gündə 3-4 dəfə, hər dəfə 200-300 qram yemək məsləhət görülür.

## İmadəddin Nəsiminin 650 illiyi münasibətilə poçt markaları buraxılıb

"Azərmarka" tərəfindən Azərbaycanın dahi şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyi münasibətilə yeni poçt markası hazırlanıb. Markada İmadəddin Nəsiminin silueti, aşağı hissəsində isə yazı lələyi təsvir edilib. Hazırlanan blokun ölçüsü 72x92 millimetr, markaların ölçüsü 51x36 millimetrdir. Markalar 10 min ədəd tirajla çap edilib.



# Maraqlı faktlar

● Tarixdə ilk odekolon taun xəstəliyinə qarşı profilaktik vasitə kimi istifadə edilib.

● Dünyanın ən bahalı valyutası Küveyt dinarıdır və hazırda 5.61 manata bərabərdir.

● Kaftar ən güclü çənəyə sahib canlılardandır.

● Hər gün dünyada orta hesabla 33 yeni məhsul buraxılır, bunların 13-nü isə oyuncaqlar təşkil edir.

● Ağcaqanadları yenicə banan yemiş insanın ətri cəlb edir.

● Xokkey şaybasının atılma süräti saatda 160 km-ə çata bilər.

● İl ərzində insan qabırğası 5 milyon dəfə hərəkət edir.

● Dəvədəlləyi yeganə həşəratdır ki, başını çevirə bilir.

● Dünyanın heç bir dilində dizin arxa hissəsinin adını verən bir söz yoxdur.

● Normal insanın yuxuya getməsi üçün orta hesabla 7 dəqiqə vaxt tələb olunur.

## Yer kürəsinin dəyişən iqlimi

Yer kürəsinin iqlimi geoloji dövr ərzində kəskin dəyişir. Tədqiqiatlar göstərir ki, son 900 min il ərzində 10 dəfə buzlaşma mərhələsi olmuşdur. Biz hal-hazırda iki buzlaşma mərhələsi arasındakı istiləşmə dövründə yaşayırıq.

## Heyvanların sədaqəti: Şəlalənin altında bir-birini xilas etməyə çalışan altı fil tələf olub

Tailandda gur şəlalənin altında boğulan "dostlarını" xilas etməyə çalışan altı fil tələf olub.

AZƏRTAC BBC telekanalının saytına istinadla xəbər verir ki, insident fil balasının "Xao Yai" Milli Parkının mərkəzində yerləşən şəlalənin altında qalması ilə başlayıb. Onun köməyinə gələn digər heyvanlar da boğularaq ölüblər. Tailand xilasedicilərı onların cəsədlərini suyun altından çıxarıblar.

Qeyd olunur ki, "Haev Narok" ("Cəhənnəm şəlaləsi") adlanan bu şəlalədə bu cür insidentlər çox olub. 1992-ci ildə burada doqquz fil tələf olub. Həmin vaxt fillərin şəlaləyə yaxınlaşmasının qarşısı alınmışdı.

Milli Parkın direktoru Xançit Srinoppavan bildirib ki, ətrafdakı fillərin də tələf olanların yanına gəlməsi və onları kədərlə müşahidə etməsi park işçilərinin təəccübünə səbəb olub.

Tailandda 7 mindən çox fil olduğu, onların yarısının heyvanat parklarında saxlandığı bildirilir.

# Bilirsinizmi?

Dünyada 260 ölkə 7,5 milyard əhali var. Dünya əhalisi təxminən 7000 dildə danışır. Ən çox istifadə olunan 40 dildən dünya əhalisinin üçdə iki hissəsi istifadə edir.

Yer kürəsi əhalisinin istifadə etdiyi 7000 dildən cəmi 95-i dövlət dili statusuna malikdir.

İngilis dili 56, Fransız dili 29, ərəb dili 24, İspan dili 20, portagiz dili 8, alman dili 6, rus dili 4, İtalyan dili 4 holland və serb dilləri hər biri 3 ölkənin dövlət dili statusuna malikdir.

Qürurverici haldır ki, planetimizdə istifadə olunan 7000 dildən cəmi 95-i dövlət dili statusuna malikdir ki, onun biri də Azərbaycan dilidir.

* * *

Insan yazı yazmağı 5000 il əvvəl öyrənmişdir. Alimlər təyin etmişlər ki, qədim insanlar 15-50 min il əvvəl dırnaqları ilə qayalarda, mağaralarda qazdıqları xüsusi işarələr və şəkillərlə bir-birilə əlaqə saxlayırdılar və bir-birinə nəyisə xəbər verirdilər. Sonralar cəmiyyət inkişaf etdikcə işarələr sadələşdirilib və sayı azaldılıb. Belə hesab edirlər ki, bir bacarıqlı finikijalı əlifba düzəldib və bununla ilk "Məktub" yazıb. İndiki anlamda əlifba əvvəlcə Yunanıstanda yaradılıb, buradan Romaya, Avropaya yayılmışdır.

# İtmişdir

Azərbaycan Respublikasının DƏDR Xidmətinin Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən **Rəsuləsl Rza Aslan oğluna** 23 oktyabr 2008-ci il tarixdə verilmiş MH seriyalı 0011807 nömrəli (reyestr nömrəsi 406013005550, qeydiyyat nömrəsi 1908005846) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** və AA seriyalı 002842 nömrəli (reyestr nömrəsi 406013005550, inventar nömrəsi 406-88/206) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə Tüntül kənd sakini **Şükürov Hidayət Məmət oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 259 nömrəli (kod 40616018) torpağa **mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiya DİSPLAY- ının 28 oktyabr 1998-ci il tarixli DİSPLAY 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Kərimov Mehman İlyas oğluna və ailə üzvlərinə** verilmiş **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Əhmədov Ehtiram Qüdrət oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 203 nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Bum Bələdiyyəsinin Bum qəsəbə (əvvəlki kənd) sakini **Ağasıyev Müsavər Fərrux oğluna** satdığı torpaq sahəsinə dair Qəbələ «ASAN xidmət» mərkəzi notariat kontorunun təsdiq etdiyi 01 noyabr 2016-cı il tarixli AN-I seriyalı 0587968 nömrəli **daşınmaz əmlakın alqı-satqı müqaviləsi** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən **Axundova Mətanət Yusif qızına** 10 noyabr 2012-ci il tarixdə verilmiş RX seriyalı 0046566 nömrəli (reyestr nömrəsi 406013011958, qeydiyyat nömrəsi 1912007654) **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə Çuxur Qəbələ kənd sakini **Şirinov Cəmil Əli oğluna** veilmiş JN seriyalı 190 nömrəli (kod 40617018) **torpağın mülkiiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

«Qəbələ» qəzeti redaksiyasının kollektivi sabiq iş yoldaşları **Aslan Cəlilova** bacısı

**GÜLEYŞƏ XANIMIN**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Emin Baratoğlu **Aslan Cəlilova** və **Şəhla Xəlilqızına** əzizləri

**GÜLEYŞƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərlərinə şərik olur.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

Redaktor Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1360*